**Arzu Mürvətova**
**doktorant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** arzumurvatova@gmail.com

# Xalq rəssamı Xalidə Səfərovanın yaradıcılığında obrazlılığın bədii ifadəsi

**Xülasə:** Məqalə Azərbaycanın Xalq rəssamı Xalidə Səfərovanın bədii yaradıcılığına həsr olunmuşdur. Müəllif rəssamın müraciət etdiyi hər hansı bir janrı ayrıca deyil, bütün yaradıcılığı kompleks şəkildə götürmüş, bu yaradıcılıqda obrazlılığın bədii ifadəsini öyrənməyə çalışmışdır. Xalidə Səfərovanın fırçasına məxsus əsərlərdə hər zaman mövzu və kompozisiya quruluşu arasındakı əlaqələndirməni uğurlu hesab edən müəllif, rəssamın "Qız portreti", "Avtoportet", "Yaxt klub", "Ağac altında", "Səhər" kimi əsərlərinə müraciət etmişdir. Rəssamın əsərlərində yaratdığı obrazlar da məqalədə tədqiqata cəlb edilmişdir. Müəyyən edilmişdir ki, adətən rəssam yaratdığı obrazları tək halda deyil, onları həyat tərzini şərtləndirən və işlərini, sənətlərini xarakterizə edən detallarla təqdim edir.

**Açar sözlər:** Xalidə Səfərova, rəng, çalar, rəssam, obraz, işıq-kölgə, ifadə.

Azərbaycan rəngkarlığının 1960-70-ci illərdən başlayaraq öz yaradıcılıq fəaliyyəti ilə sənətsevərlərin diqqətini cəlb edən əsərlərə müəlliflik etmiş Xalidə Səfərova təsviri sənətin müxtəlif janrlarında özünü sınamış və bu sınaq özünün uğurlu nəticələri ilə sənətkarın gələcək yaradıcılığına təkan vermişdir. Rəssamın zaman-zaman yaratdığı əsərlərin bu gün də cəlbedici və milli ruhda qəbul olunması, onun dünya incəsənəti ənənələrinə yaradıcı yanaşmalarının uğurlu nəticəsi kimi dəyərləndirilə bilər.

İstedadlı rəssamın mənzərə, natürmort, süjetli təsvirləri onun yaradıcı məharətinə hakim kəsilmiş realistik janrın ənənələrində milli dəyərlərin ifadəçisi kimi çıxış etməsi həmin tabloların günümüzdə də sevilərək izlənməsinin əsas səbəbidir. Rəssamın əsərlərində həyata keçirdiyi obrazlılıq, xarakterik cizgilərin əks olunmasında insanların həyatı mövqeləri və yaxud günlük yaşantılarında bir fraqmentin verilməsi mövzu və kompozisiya quruluşlar arasındakı uğurlu əlaqləndirməni təsdiq edir. Belə əsərlərinə misal olaraq "Qız portreti", "Avtoportet", "Yaxt klub", "Ağac altında", "Səhər" və digər bu kimi əsərlərini misal göstərmək olar. "Qız portertində" rəssam obraz ifadəsində onun məsum xarakterini, incə daxili dünyasını cizgilərin ifadəsində

məharətlə həyata keçirməyi bacarmışdır. Qrafik əsər ağ və qara təzadının uyğun ifadəsində özünün məna-dəyərini açıqlayır. Kağız materialın fonunun üzərində kölgəli ləkələrin verilməsi portretin təkrəngli ifadəsində onun mənəvi dünyasını psixoloji məqamların əsaslarını tutaraq onun həmin an üçün deyil, ümumilikdə xarakterinə xas olan təmkinli, səbirli xarakterik mühitini izah edir.

Əyləşmiş obraz nəzərlərini yerə dikmişdir. Onun qeyri-müəyyənliyə tamaşa edən nəzərlərində bir narahat düşüncə özünü göstərməkdədir. O, əlin birini çənəsinə dayayaraq dərin xəyala qərq olmuşdur. Yuxarıdan toplanmış qalın saçlarının yanlara dağılması dalğalı təsvirləri obrazın ifadəsindəki mənalı görüntüyə xüsusi dəyər qatmışdır. Bir çiyninin daha irəliyə verərək bir qədər yandan təsvirə alınması obrazın sırf təsviri köçürülməsini deyil, onun gənc qız dünyasına məxsus zərifliyini, incə nazını önə çəkir. Libasının dirsəyə qədər olan qol hissəsinin qırçınları belə bütünlükdə əsərdə zərifliyin təsvir detalı kimi öz əhəmiyyətini təsdiqləməkdədir. (1)

Obrazlılığın dərin psixoloji məqamlarının açıqlanmasında rəssamın yaratdığı avtoportret rəssamın özünü dəyərləndirmə prosesində göstərdiyi yüksək təcrübənin nəticəsində olduqca real, təbii cizgilərlə öz əksini tapmışdır. Hər şeydən əvvəl rəssam obrazlılığın əldə edilməsində onu uyğun məkan daxilində əlaqəli ifadədə canlandırmağı məqsədəuyğun hesab etmişdir. Qrafik formatda həll olunmuş əsər arxa fonun divarından asılmış rəngkarlıq tablonun tərənnümü qarşısında verilmiş avtoportretdə rəssamın həm də həyat fəaliyyətini dəyərləndirməyə imkan verir. İncə zövq, zərif hisslər tərənnümçüsü olan Xalidə Səfərova bu hislərin bədii ifadəsini tamşaçısına mehriban nəzərlərlə baxan səmimi baxışlarında canlandırmışdır. Rəssamın qısa dalğalı saçları, qara qalın qaşları onun qadın zərifliyini tərənnüm edirsə, göz ifadəsindəki dünyaya sevgi saçan baxışlarını daha dərin ifadələrlə tamaşaçısına təqdim edir. Ümumiyyətlə, dünya rəssamlığında çox zaman rastlaşdığımız fərqli rəssamların yaratdıqları avtoportretlərin hər birində fərqli xarakterik mühitlə qarşılaşsaq da, onları birləşdirən ümumi cəhətin hər bir sənətkarın yaradıcı keyfiyyətlərini şərtləndirən sərt və yaxud təmkinli insani keyfiyyətlər sanki qeyri-adi olaraq material üzərinə köçürülmüşdür. (2)

Rəssamın əsərlərində yaratdığı obraz ifadələr çox halda onların hər hansı bir məkan daxilində əlaqəli motivlərin əhatə edilməsi ilə öz həllini tapmışdır. Belə nümunələrdən olan “Ağac altında” adlı tablosunda rəssam gənc qızların optimist əhval-ruhiyyələrini onların xoş, günəşli təbiətində ifadə etməsi məqsədin daha ifadəli həllində öz əhəmiyyətini göstərmişdir. Yaşıl yarpaqlı budaqların ətrafa yaylan xoş təəssüratı onun kölgəsində oturmuş iki qızın bədii ifadəsindəki dinamik çalarla öz həllini tapır. Onlardan biri ağacın yarpaqlarına əli ilə sığallayaraq üzərindəki meyvələri toplayıb yan hissədə qoyulmuş mis qabın içərisinə doldurur. Rəssam burada milli motivlərin istifadəsinə də yer

verərək dolğun kompozisiya quruluşunu yaratmağa nail ola bilmişdir. Həmin elementlər mis qabların, daş hörgünün üzərinə sərilmiş kiçik xalı parçasının rəngarəng, təbii və real ifadəsində həll edilərək əsərə xüsusi dəyər qatmışdır.

Tərənnüm edilmiş ikinci qız obrazı isə əlindəki mis səhəngin içərisinə doldurduğu gilasları səbətin içinə boşladır. Qızın bütün obrazında onun millilik prizmasından tərənnüm edilməsi, dəyərlərin saf kənd qızının müasir ifadəsinin verilməsi saçlarını bir kənardan toplaması, əyninə geydiyi libasın sadə xarakterik həlli ilə həyata keçirilmişdir. (3).

Məsələn, "Səhər" adlı tabloda da rəssam kənd həyatının tərənnümün verməklə ifadə etdiyi qadının simasında ümumi obrazlılığı, səciyyəvi xarakterikliyi ifadə etməyə çalışmışdır. Hər şeydən əvvəl tabloda tərənnüm edilmiş mənzərənin saf rənglərinin real ifadəsi diqqəti xüsusi olaraq cəlb edir. Göl kənarında qazları yemləyən gənc bir qızın üzəri göy çiçəkli qırmızı libası, üzərindəki ağ önlüyü kənd həyatının səhər qayğılarını özündə əks etdirməklə, insanların həyat tərzindən bir fraqmenti canlandırmışdır. Gölün mavi suları, yaşıl otluq ətrafa toplanmış, dənə tərəf qaçan qazların tərənnümü əsərdə təbiət və yaşam əlaqləndirməsinin xoş aurasını canlandırır. Bu auranın obraz tərənnümündəki xoş əhval-ruhiyyəyə göstərdiyi təsiri rəssamın yaradıcılığında insan və mühit obrazının sintezi kimi dəyərləndirmək olar. Qadının başında yaşıl çalmasını yarıya qədər endirməsi onun bütün bu qayğılara baxmayaraq özünü itirməyən qadın zərifliyini önə çəkir ki, bu məqam Xalidə Səfərova yaradıcılığında öz prinsipiallığını hər zaman qorumuşdur. Ümumiyyətlə, rəssamın yaradıcılığında hər anın gözəlliyinin tərənnümü onun yaradıcılığına məxsus səciyyəvi xüsusiyyətdir. (4)

Misal olaraq rəssamın eyni xarakterikliyini özündə əks etdirən "Mənim diyarım" triptixinin sağ hissəsi olan "Axşam" əsərini müqayisə edə bilərik. Əsər bundan əvvəli tablodan kompozisiya və təsvir motivlərinin fərqli detal təsvirləri ilə seçilsə də, tərənnüm edilmiş qadın obrazlarının ifadəsində rəssam zəriflik məqamını eyni tərzdə qorumuşdur. Mənzərə uzaqdan görünən dağların arxasına keçən günəşin ətrafa dağılmış qızartılarının fonunda verilmişdir. Perspektivdən önə doğru gələn yol kənarlarında ağacların sıralanması isə kompozisiyanın dolğun ifadəsində təqdim edilir. Uzun çığır şumlanmış torpağın bir tərəfində öz-özünə çıxan lalələrin qırmızı şuxluğunu ifadə edir. İki zəhmətkeş qadın obrazları əllərindəki alətləri bir kənara qoyaraq həmin lalələrin zərifliyinə olan heyranlıqlarını sevgi dolu ifadələri ilə canlandırmışlar. Bütün bunlar rəssamın qadının hansı şəraitdə olursa olsun ruhuna hakim kəsilmiş gözəllik anlayışını, zərifliyi, sevgini, lirizmi əsas olaraq ifadə etməyə çalışmışdır. Bu lirik-romantik duyğular yenə də mühit və obraz əlaqələndirməsinin məharətli ifadəsində öz həllini tapmışdır. Rəssam buna həm də çalarların uyğun harmonik ifadəsində nail ola bilmişdir. (5).

"Velosipedçi" qrafik tablosunda rəssam gənc idmançı obrazının tərənnümündə onun bədən plastikasını böyük məharətlə həyata keçirmişdir. Əsərdə velosipedin tam təsvirini verməyən rəssam onun təsvirdən kənarda qalmış təəssüratını real formada hiss etdirməyi bacarmışdır. Tərənnüm edilmiş obraz başındakı kepkasını tərs çevirmiş, iki əlini arxaya verərək özünü velosipedin sükan hissəsinə dayamışdır. Gəncliyin qayğısız yaşam ifadəsi, özünə olan güvən tərənnüm edilmiş gəncin xarakterik dünyası xüsusi bədii ifadələrlə canlandırılmışdır. Onun qol əzələlərinin bir qədər şişmiş forması, düzgün vücudu idmançı olduğunu aydın göstərən ifadələrdir. İstedadlı rəssam qeyd edilən bu təəssüratı özünün dərin yaradıcılıq təcrübəsi əsasında ən incə məqamlarına qədər həyata keçirmişdir. Tablonun rəng həllində də harmonik uyğunluğun əldə edilməsi birmənalıdır. Açıq çəhrayı düz fon üzərində verilmiş obrazın geyim tərzində onun köynəyi həmin çaların daha tünd fonda canlandırılmış, kepka və şalvarın təsvirində isə həmin rəngə uyğunlaşdırlmış mavinin əlaqləndirilməsindən istifadə edilmişdir. (6). "Gimnastlar" əsərindəki obraz ifadələrdə rəssam gənc nəslin şən, dinamik həyatını, sağlam ruh prinsipini bir qədər yaşayıb-yaratdığı sovet dövrünün təsviri sənətin qarşısına qoyduğun tələblərdən irəli gələrək həll etmişdir. Xoşbəxt bir cəmiyyətin xoşbəxt övladları nüansı əsərdəki dinamik forma və çalarlarla yanaşı kompozisiyada irəli sürülən məqsədin prinsipial tərəflərindən də xəbər verir. Lakin bu rəssamın milli dəyərlərə, ənənələrə sadiqliyini qəti şəkildə inkar edə bilməz. Rəssamın digər əsərlərində həll etdiyi milli dəyərlər bundan əvvəl təhlil edilmiş əsərlərdə də özünü sübut etmişdir.

Qeyd edilən tabloda rəssam fon ifadəsində yuxarı hissənin göy, aşağı qismin isə narıncı tonlarını obrazların bədii ifadəsində də uyğun rəng paylanması ilə verərək təsvirdəki balansı qorumuşdur. Belə ki, heç bir çaların birini digərinin üzərinə ağırlıq salaraq detalları kölgədə qoymaması nüansı özünün aydın göstərir. Gimnastlardan biri ayaq üstə əllərini bir qədər yuxarı qaldıraraq bədəninin ağırlığını saxlayaraq özünü yıxılmaqdan qoruyur. Digər gənc qız obrazı isə əyilərək gimnastik nömrənin hərəkətlərinin ardıcıllığını davam etdirir. (7)

Ağ köynəkdə, başında ağ həkim papağında verilmiş obrazın ifadəsində dərinlik təəssüratını yaradan işıq-kölgə nüansının məharətli istifadəsi obyektin elə ağ fon üzərindəki təsvirinin aydın qavranılmasında heç bir mane yaratmır, əksinə məzmunun ifadəsinin tələbindən irəli gələn saf rənglərin tərənnümündəki məqsəduyğunluğu təsdiqləyir. (8). "Neftçi" əsərində rəssam zəhmətkeş insanın obraz təsvirində onun qırışmış alnını, tutqun simasını işıqlandırmaqla, kədəri həyata etirazı deyil, tam əksinə olaraq qüruru, özünə olan güvəni qabarıq ifadələrlə önə çəkir. Təbii ki, əsər sovet ideologiyasının zəhmətkeş sinfin nümayəndəsi üçün nəzərdə tutulmuş xarakterikliyini ifadə

edir. Lakin fərqli insani cəhətlərin yaradılması, obrazlılıq prinsipi Xalidə Səfərovanın böyük həyat təcrübəsini, psixoloji dəqiqlik prinsipini bir daha təsdiq edir. Öndə verilmiş obrazın arxa fonunda Xəzərin göyərən suları, neft mancanaqları tərənnüm edilərək tablonun məzmun açıqlamasına aydınlıq gətirmişdir.

Xalidə Səfərovanın obraz ifadələrinə həsr edilmiş əsərləri üzərində aparılmış təhlillərin nəticəsi kimi qeyd etmək olar ki, rəssam xarakterik obraz mühitini yaradarkən bir qayda olaraq onu təbiət təsvirləri ilə qarşılaşdırılaraq, əlaqələndirilərək daha qabarıq həssaslıqla verilməsinə cəhd etmişdir.

## Ədəbiyyat:

1. Əsgərova X.Z. Azərbaycanın qadın rəssamları. Fəlsəfə dokt. diss.– Bakı, 2011.
2. Əsədova X. Xalidə Səfərova. Bakı. 2013.
3. Məlikova Ş. Xalidə Səfərova və Mahmud Tağıyev [İzomaterial] : [rəngkarlıq və qrafika] Bakı: Xalq Bank, 2011
4. Məlikov Səməd. Çiçək yağışı altında // Azərbaycan gəncləri. 1990. 6 fevral.

## Художественное выражение образности в творчестве народного художника Халиды Сафаровой

## Резюме

Статья посвящена творчеству народного художника Азербайджана Халиды Сафаровой. Автор исследовал все произведения художника в комплексе, не отделяя от какого-либо жанра, и попытался изучить художественное выражение образности в этих картинах. В статье автор затрагивает единство темы и композиционной структуры работ, принадлежащих кисти Халиды Сафаровой, и обращается в основном, на такие картины художника, как «Портрет девушки», «Автопортрет», «Яхт-клуб», «Под деревом», «Утро». Образы и персонажи, созданные художником в его работах, также являются объектом исследования данной статьи. Автор приходит к выводу, что обычно художник представляет созданные им образы не только изолированно, но и с деталями, которые определяют образ жизни и характеризуют его творчество и искусство.

**Ключевые слова:** Халида Сафарова, цвет, оттенок, художник, образ, светлая тень, выражение.

# The artistic expression of the image in the activity of People's Artist Khalida Safarova

**Summary**

The article is devoted to the artistic activity of Khalida Safarova, the People's Artist of Azerbaijan. The author tries to investigate not only any genre of the artist's appeal, but also the whole fiction in a complex way and to learn the artistic expression of the image in this activity. In the works belonging to Khalida Safarova the author always considers the connection between the subject and composition structure successful and applies to the artist's works such as "Portrait Of The Girl", "Auto portrait", "Yacht Club", "Under the tree", "Morning". The images created by the artist in her works are also included into the investigation in the article. It is found out that usually the artist presents not only the images, but also the details that characterize the life style, works and arts.

**Key words:** Khalida Safarova, color, shade, artist, image, light-shade, expression